hazırlanmış variant

Səfir Riçard Morninqstarın İftar Süfrəsində Etdiyi Çıxışı

10 iyul, 2014

Bu axşam bu iftar süfrəsinə ev sahibliyi etməkdən böyük məmnunluq duyuram. Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Salman Musayevə xüsusi salamlarımı bildirirəm.

Azərbaycanın bütün dini icmalarının rəhbərlərini, hökumət nümayəndələrini və diplomat həmkarlarımı da salamlamaq istəyirəm.

Bu iftar süfrəsi müqəddəs Ramazan ayının gəlişindən xəbər verir. Bu bayram bizə ibadət və etiqad barədə dərindən düşünmək fürsəti verir. Azərbaycanda milyonlarla müsəlman dünyadakı müsəlmanlarla birgə bu mübarək bayramı qeyd edir.

Ramazan ayı ehtiyacı olanların vəziyyətindən xəbərdar olmaq zamanıdır. Dünyanın hər guşəsində yaşayan müsəlmanlar imkansızlara əl tutmağ niyyətinə sadiqliyini bu ayda bir daha təsdiq edir.

Bu ayın qeyd olunması bizim başqaları ilə onların bizimlə davranmasını dilədiyimiz tərzdə davranmağın əhəmiyyətini bizə xatırladır. Sevindirici haldır ki, Azərbaycandakı çoxsaylı dini icmalar arasında qarşılıqlı hörmət və tolerantlığın (dözümlülüyün) çoxəsrlik tarixi var. Bu aşxam biz bu faktı da qeyd edirik.

Prezident Obamanın arzularına qoşularaq hər birinizə ailə səadəti, sülh, əmin-amanlıq, birlik və bərabərlik, habelə qarşılıqlı anlaşma dolu bir ay diləyirəm. Ramazan bayramınız mübarək!